| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | HIST 203 Qədim Dünya tarixi-1, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Orxan Zamanov |
| | **E-mail:** | orkhan.zamanov@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | II və IV günlər 14:10, 15:50 və Muzeydə ekskurs dərslər |
| | **Məsləhət saatları** | **Müəllimin təyin etdiyi vaxtda** |
| **Prerekvizitlər** | **Yoxdur** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **A. Əsas:**<br>1. Mühazirə mətnləri*<br>**2. Yusif Yusifov. Qədim Şərq Tarixi. Bakı, 1993, 2007.**<br>3. Samuel Kramer. Tarix Şumerlərdən başlanır. Bakı, 2009.<br>4. Solmaz Qaşqay. Ön Asiyada miqrasiya proseslərinə dair. Bakı, 2009.<br>5. Beynəlxalq münasibətlər tarixi (qədim dövr və orta əsrlər). L.Z.Qarayeva, Ş.T.Nuruzadə, Z.E.Məlikova. Bakı, 2018, 488 s. 18-95 səh.<br>6. Yaponiya tarixi. D.Ş.Davudov. dərs vəsaiti. I hissə. Bakı, 2014, 568 s. 3-19 səh.<br>**B. Əlavə:**<br>7. Месопотамия. Стивен Бертман. Москва, 2007.<br>8. Tofiq Mustafazadə. Ümumi tarix. I kitab, Bakı, 2009, s.43-149.<br>9. McIntosh, Jane R. Ancient Mesopotamia: new perspectives. Santa Barbara.2005.<br>10. Хрестоматия по истории Древнего Востока. Ч. 1, Москва, 1980 стр.3-16, 151-178.<br>11. Bilqamış dastanı. Bakı, 1999.<br>12. Marcella Frangipane. Yakındoğu'da Devletin Doğuşu. İstanbul, 2002.<br>13. Cəlil Nağıyev. Qədim Şərq ədəbiyyatı tarixi. Bakı, 2004.<br>14. Tərlan Novruzov. Qədim Şərq ədəbiyyatı. I hissə, Bakı, 2007.<br>15. Qədim Dünya mədəniyyəti. İ.Hüseynov, N.Əfəndiyeva. Bakı, 2009 s.19-174.<br>16. Сравнительное изучение цивилизаций: Хрестоматия. Москва, 1999, стр. 556<br>* Mühazirə mətnləri История Древнего Востока. (Под. ред. В.И. Кузищина, Москва, 1979, 1988, 2005.), История человечества, том 2. (III тысячелетие до н.э. - VII век до н.э. ЮНЕСКО, Магистр-пресс, Москва, 2003.), Van de Mieroop, Marc. A History of the Ancient Near East ca.3000-323 BC. (Padstow, Cornwall. 2007.) kitablarının bazasında hazırlanılır. Mövzu üzrə əlavə ədəbiyyat dərs zamanı tövsiyyə olunacaq. | |
| **İnternet resursları** | **http://www.ebooks.az/category_history.html**<br>**http://history.az/**<br>**http://www.tarix.gov.az/books.php**, | |

<table>
<tr><td>Kursun təsviri və məqsədləri</td><td colspan="3">“Qədim Şərq tarixi” başlıca universitet kurslarından biri olan “Qədim Dünya tarixi”nin ayrılmaz tərkib hissəsidir. Fənnin əsasını ilk dövlətlərin yaranması, yüksəlişi və tənəzzülü tarixi təşkil edir. Məhz dövlətçilik fonunda Qədim Şərqin cəmiyyətləri, mədəniyyəti və irsi tədris olunur.<br>“Qədim Şərq tarixi” fənni Şərq ölkələrinin siyasi-hərbi və ictimai-iqtisadi məsələlərinin, mədəni və etnik durumun səciyyəsi baxımından tarixi, ümumi, yerli və regional cəhətdən bu ölkələr barədə təsəvvür yaradır. Həmçinin Qədim Şərq mədəniyyətinin Qərb sivilizasiyasına təsiri problemi və ümumşərq tarixi çərçivəsində tarixi Azərbaycanın yeri məsələsinə aydınlıq gətirməyə imkan verir.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələrdə:<br>• Qədim Şərq tarixi haqqında ümumi məlumat;<br>• Qədim Şərq tarixinin bəşəriyyət tarixinin başlanğıcı olması;<br>• Qədim Şərq ölkələrinin dövlətçiliyi, təsərrüfatı, mədəniyyəti və siyasəti;<br>• Qədim Şərq mədəniyyətinin çoxcəhətli inkişafı və onun dünya mədəniyyətinə təsiri və təkan verməsi.<br>• Qədim Şərq ilə tarixi Azərbaycanın əlaqələri.<br>• Şərq sivilizasiyasının yaranması və onun Qərb mədəniyyətinin meydana çıxmasındakı rolu ilə bağlı biliklər formalaşacaqdır.</td></tr>
<tr><td rowspan="5">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">X</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">X</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">X</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">X</td></tr>
<tr><td>Digər</td><td colspan="2">X</td></tr>
<tr><td rowspan="9">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%), bal</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Noyabr</td><td>30 bal</td></tr>
<tr><td>Aktivlik/Yazılı seminar</td><td>Semestr ərzində</td><td>8 bal</td></tr>
<tr><td>Yoxlama yazı işi (quiz)</td><td>Oktyabr ayının ilk həftəsi<br>Dekabr ayının ilk həftəsi</td><td>10 bal<br>(5+5)</td></tr>
<tr><td>Layihə/Prezentasiya</td><td>Noyabr</td><td>6 bal</td></tr>
<tr><td>Yazı işi/məqalə</td><td>Əlavə olunacaq</td><td>6 bal</td></tr>
<tr><td>Final imtahanı</td><td>Yanvar</td><td>40 bal</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100 bal</td></tr>
<tr><td colspan="3"></td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Aktivlik<br>Tam aktivlik balı dərslərdə, diskussiyalarda, prezentasiyalarda və elmi seminarlarda fəal iştirak edən tələbələrə verilir. Xəzər Universitetinin iştirakçısı olduğu layihədə aktiv fəaliyyət aktivlikdə nəzərə alınır.<br>Davamiyyət<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbə müəyyən üzürlü səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərdə iştirak edə bilmirsə, o zaman bu haqda fakültə dekanlığına məlumat təqdim etməlidir. Fənn üzrə ümumi dərs saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>Dərsə gecikmə<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq,</td></tr>
</table>

tələbə dərsdə iştirak edə bilər.
**Yoxlama yazı işi**
Yoxlama işində iştirak etməyən tələbə qeyri-müvəffəq qiymət alır. Əgər tələbə üzürlü səbəbdən yoxlama işində iştirak edə bilməmiş və bu haqda dekanlığa məlumat vermişsə, o zaman həmin tələbə yoxlama işini növbəti həftə yaza bilər. Kurs boyu bir yoxlama yazı keçirilməsi nəzərdə tutulur.
**Lahiyə/Prezentasiya**
Qədim Şərq tarixi ilə bağlı xüsusi təqdimat hazırlanması və ya Xəzər Universitetinin iştirak etdiyi layihədə aktiv fəaliyyət, eləcə də, fənn müəlliminin tərəfdaş olduğu elmi layihədə iştirak müvafiq bölmə üzrə tam bal təmin edir.
**Yazı işi/məqalə**
Qədim Şərq tarixi ilə bağlı seçmə mövzu ətrafında müstəqil elmi-kütləvi xarakterli məqalənin hazırlanmasındakı üstün bacarığına görə tam bal alır.
**Qeyd:** Plagiat halları qəti qadağandır! Sərbəst işlə əlaqədar bütün tapşırıqların qısa təsviri, təqdim olunma şərtləri, vaxtı və qiymətləndirmə üsulu dəqiq göstərilir.
Yazı işi/məqalənin təhvil verilmə tarixi müəllim tərəfindən elan ediləcək.
Mövzular sillabusda qeyd edilib.
**Prezentasiya və məqalələrin tərtibi qaydaları**
Qədim Şərq tarixi ilə bağlı seçmə mövzu ətrafında müstəqil elmi-kütləvi xarakterli məqalənin hazırlanması zamanı aşağıdakılara diqqət yetirilməlidir:
- Məqalə (Təqdimatlar) mövzusu müəllim tərəfindən hazır plan ilə təqdim olunur (Əlavə N1). Tələbə mövzunun mahiyyətinə uyğun müstəqil ad seçməkdə sərbəstdir.
- Plagiat halları qəti qadağandır!
- Məqalə 12 şrift, TNR və 1 interval ilə tərtib olunmalıdır.
- Mütləq elektron nüsxə və illustrativ materiallar slayd şəklində müvafiq proqram təminatında yığılmalıdır.
- Məqalədə ən azı 8 şəkil və təqdimatda isə 5 slayd ola bilər.
- Məqalənin və ya Təqdimatın mətni çap edilərək təqdim olunmalı, slayd və elektron formatda olan nüsxə isə müəllimin elektron poçt ünvanına göndərilməlidir.
- Məqalə (Təqdimat) 6 bal ilə qiymətləndirilir. Məqalənin hazırlıq qovluğuna slayd şəkilli təqdimat əlavə olunsa və yüksək səviyyədə hazırlıq nümayiş etdirən tələbələr tam balı ala biləcəklər.
- Məqalə (Təqdimat) AAK-nın və ya rəsmi qəbul olunmuş istinadlanma ilə müşayət olunmalı, istifadə olunmuş mənbə və qaynaqlar dərs vaxtı auditoriyada nümayiş olunmalıdır.
- Hər bir tələbə fərdi şəkildə məqalə tərtib etməlidir. Məqalə başlığı və tərtib qaydaları Xəzər Universitetinin elmi jurnallarından olduğu kimi həyata keçirilməlidir və 5 A4 vərəqindən artıq olmamalıdır.

Şəkil və cədvəllər məqalənin sonunda verilməlidir.
Təqdimatların ilk slaydına mövzunun adı verilməli və tələbənin adı, soyadı, ixtisası yazılmalıdır. Təqdimatın genişlənməsindən əvvəl - _____*.ppt, tələbənin ingilis şrifti ilə adı və təvəllüdü yazılmalıdır. Təqtimatdakı yazılar 12 şrift, TNR və 1 interval ilə tərtib olunmalıdır. Mütləq elektron nüsxə və illustrativ materiallar slayd şəklində müvafiq proqram təminatında yığılmalıdır. Minimum 8 şəkil və 5 slayd ola bilər. Təqdimatın mətni çap edilərək təqdim olunmalı, slayd isə müəllimin elektron poçt ünvanına göndərilməlidir. Təqdimata yüksək səviyyədə hazır olan tələbələr müvafiq tam

balı ala bilir.

**Qədim Şərq tarixi fənınindən məşğələ (seminar) ilə bağlı qeydlər.**

1) Yuxarıdakı proqramdakı mövzulara kurs boyu şifahi cavab verilməli və tövsiyyə olunmuş yerli və xarici dildə olan ədəbiyyatlardan istifadə olunmalıdır. Tələbə məşğələ zamanı mövzunu aydın izah etməli, sual-cavabda fəal olmalı və faydalandığı mənbələri əsaslandırmalıdır.

2) Dərs zamanı müxtəlif ədəbiyyatlardan istifadə etməsini təsdiqləyən qeydlər, mənbənin surəti və ya kitabxanadakı inventarlaşma məlumatları olan seminar dəftəri olmalıdır.

3) Məşğələ zamanı fəal olan tələbələr aktivlik balı ilə qiymətləndirirlər. Aktivlik 15 baldır və hər dərs hazır olan tələbə sonda ən yüksək balı ala bilir.

**İmtahanlar.**

Aralıq imtahanı (imtahanın keçirilməsi forması -yazılı, test və açıq suallar) Mövzular: Giriş, Qədim Misir və Qədim İkiçayarası).

Final imtahanı (imtahanın keçirilməsi forması -yazılı, test və açıq suallar) Mövzular: (Qədim Anadolu və Qafqaz, Qədim Ön Asiya, Qədim İran və Türküstan, Qədim Hindistan və Çin).

Aralıq və yekun imtahanının mövzuları tələbələrə imtahandan əvvəl verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.

**İmtahan qaydalarının pozuntuları.**

Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişinin pozulması, imtahanda istifadəsinə yol verilməyən əlavə vəsaitlərdən (kitab, konspekt-dəftər, mövzunun yazıldığı vərəq, telefon, diktofon, mikrodinləyici qurğu və s.) istifadə edilməsi və köçürmə qadağandır. Bu qaydaya əməl etməyən tələbə imtahan zalından çıxarılır, onun imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymətlə imtahandan kənarlaşdırılır.

**Fənni bitirmək qaydası.**

Universitetin qaydalarına uyğun olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 və daha çox hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

**Tələbənin davranış qaydaları.**

Dərs zamanı dərs prosesini pozmaq və qeyri-etik hərəkətlər etmək, yersiz və icazəsiz müzakirələr aparmaq, mobil telefondan, dinləyici qurğu və radiodan istifadə etmək, həmin dərsə aid olmayan digər fəaliyyətlə (kitab oxumaq, yazmaq, şəkil çəkmək və s.) məşğul olmaq qadağandır.

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/ Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | | **Mövzu 1. Giriş.**<br>Qədim Şərq tarixi fənninin proqramı, mövzusu, predmeti və vəzifələrilə tanışlıq. Sivilizasiya anlayışı, mahiyyəti və yaranması. Qədim Şərq ölkələrinin təbii-coğrafi şəraiti.<br>**Mövzu 2. Qədim Şərq.**<br>Qədim Şərq sivilizasiyası, onun meydana çıxması, coğrafi-xronoloji çərçivəsi və nailiyyətləri. Qədim Şərq ölkələrinin tarixi inkişaf xüsusiyyətləri. Qədim Şərqin xalqlarının araşdırılması tarixi və öyrənilmə səbəbləri. | A 1,2<br>B 7,8<br><br>A 1, 2, 4<br>B 7, 8, 11 |
| 2. | | **Mövzu 3. Qədim Misir.**<br>Qədim Misirin ərazisi, əhalisi və təsərrüfatı. Qədim Misirin etnik | A 2,4<br>B 7, 9 |

| | | | |
|---|---|---|---|
| | | və dil mənsubiyyəti məsələsi. Qədim Misir haqqında mənbələr. Qədim Misirin öyrənilməsi və tarixşünaslığı.<br>**Mövzu 4. Misirdə Erkən və Qədim sülalələr dövrü.**<br>Misir e.ə. IV minillikdə. İlk sülalələr və dövlətçiliyin meydana gəlməsi. Misir fironluğu e.ə. III minillikdə. | A 1,2<br>B 7, 9 |
| 3. | | **Mövzu 5. Misir Orta sülalələr dövründə.**<br>Ölkənin birləşdirilməsi, inkişafı və siyasəti. E.ə. III-II minilliklərdə Misir fironluğunda üsyan və müharibələr.<br>**Mövzu 6. Misir Yeni sülalələr dövründə.**<br>Misir fironluğunun yeni yüksəlişi, xarici və daxili siyasəti. E.ə. II minillikdə Misirin iqtisadi və mədəni durumu. Dini-siyasi islahatlar və diplomatiya. | A 1,2<br>A 2<br>B 7 |
| 4. | | **Mövzu 7. Misir Son sülalələr dövründə.**<br>Qədim Misirin tənəzzülü və suverenliyin itirilməsi. E.ə. II-I minilliklərdə Misir fironluğunun hərbi-siyasi və beynəlxalq vəziyyəti. Misir Assuriya və İran istilası dövründə.<br>**Mövzu 8. Qədim Misir mədəniyyəti.**<br>Qədim Misirdə yazı, dil, ədəbiyyat və din. Misirin maddi mədəniyyəti. Qədim Misirdə elmi biliklər və nailiyyətlər.<br>Qədim Misir mədəniyyətinin təsiri və rolu. Ehramlar | A 1,2<br>B 15<br>A 2<br>B 12,13,14 |
| 5. | | **Mövzu 9. Qədim İkiçayarası.**<br>Qədim İkiçayarasının ərazisi, əhalisi və təsərrüfatı. Qədim İkiçayarasının etnik və dil mənsubiyyəti məsələsi. Qədim İkiçayarası haqqında mənbələr. Qədim İkiçayarasının öyrənilməsi və tarixşünaslığı.<br>**Mövzu 10. Qədim İkiçayarası e.ə. IV-III minilliklərdə.**<br>Şumer şəhər dövlətləri və ilk sülalələr. Akkad çarlığı. Qədim İkiçayarasında kuti istilası. Babil və Aşşur şəhərlərinin meydana gəlməsi və yüksəlişi. | A 2,3,4<br>B 5, 7, 8<br>A 1,2,3<br>B 5, 7 |
| 6. | | **Mövzu 11. Qədim İkiçayarası e.ə. II minillikdə.**<br>Babilistanın yüksəlişi. Qədim İkiçayarasında siyasi-hərbi mübarizə və şəhər dövlətlərin beynəlxalq vəziyyəti. Mittaniya çarlığı. Qədim İkiçayarasında kassi istilası. Assuriyanın yüksəlişi.<br>**Mövzu 12. Qədim İkiçayarası e.ə. I minillikdə.**Yaxın və Orta Şərqdə Assuriyanın hegemoniyası. Assuriyanın hərbi siyasəti və beynəlxalq durumu. Babilin və Midiyanın yüksəlişi. Assuriya çarlığının süqutu və yeni siyasi-hərbi nizam. Qədim İkiçayarasında fars istilası. | A 2,4<br>B 15<br>A 2<br>B 7,15 |
| 7. | | **Mövzu 13. Qədim İkiçayarasının mədəniyyəti.**<br>Qədim İkiçayarası xalqlarının mədəniyyətinin səciyyəvi xüsusiyyətləri. Yazı, Ədəbiyyat və Elm. Qədim İkiçayarasının maddi mədəniyyəti və irsi. Qədim İkiçayarasında hüquq və diplomatiya. Qədim İkiçayarasının mədəni təsiri və onun izləri. Məbədlər (Zikkuratlar).<br>**(YOXLAMA)** | A 2<br>B 12,13,14 |
| | **ARALIQ İMTAHANI (1-13-cü mövzular)** | | |
| 8. | | **Mövzu 14. Qədim Ön Asiya.**<br>Qədim Suriya və Fələstinin əhalisi və təsərrüfatı. Finikiya və Şərqi Aralıq dənizinin tarixdə rolu. Mənbələr və tarixşünaslıq. Qədim Suriya şəhər dövlətləri, yaranması, yüksəlişi və tənəzzülü. “Dəniz | A 2,4<br>B 7 |

| | | | |
|---|---|---|---|
| | | xalqlarının" yürüşləri, Filistimlilər. Yəhudi və digər sami tayfalarının Ön Asiyaya köçü. İsrail və İudeya çarlıqları. Peyğəmbərlik hərəkatı. Assuriya və Əhəməni işğalları. Finikiya mədəniyyəti. Qədim Suriya və Fələstinin mədəni irsi. Əlifba.<br>**Mövzu 15. Qədim Anadolu və Qafqaz.**<br>Qədim Anadoluda coğrafi şərait və təsərrüfat həyatı. Kiçik Asiya yarımadasının əhalisinin etnik və dil mənsubiyyəti məsələsi. Hatlar və Hetlər. Qədim Anadoluda haqqında mənbələr, öyrənilməsi və tarixşünaslığı. Qədim Qafqaz xalqlarının təsərrüfatı və etnik tərkibi. Qədim Qafqaz haqqında mənbələr, öyrənilməsi tarixi və tədqiqi | A 1,2,4<br>B 5,7,11 |
| 9. | | **Mövzu 16. Anadolu və Qafqaz e.ə. III-I minilliklərdə.**<br>Het çarlığının yaranması və yüksəlişi. Hetlərin beynəlxalq münasibətlərə təsiri və Qədim Şərq səltənətlərilə əlaqələri. Het dövlətinin tənəzzülü və süqutu. "Dəniz xalqları", Kimmer-Skif və Friqiyalıların yürüşləri. Urartu dövləti və Lidiya çarlığı. Qədim Anadolu və Qafqaz Əhəməni imperiyasının işğalı dövründə. Qədim Anadolu və Qafqazın mədəniyyətinin başlıca cəhətləri. İlk pullar və sikkə zərbi<br>**Mövzu 17. Qədim İran və Türküstan.**<br>İran yaylasının əhalisi və təsərrüfatı. Qədim İranda etnik və dil mənsubiyyəti məsələsi. Elam. Qədim İran haqqında mənbələr, öyrənilməsi tarixi və tarixşünaslığı. Qədim Türküstan (Turan) xalqlarının təsərrüfatı və etnik tərkibi. Qədim Türküstan (Turan) haqqında mənbələr, öyrənilməsi tarixi və tədqiqi. Qərbi və Şərqi Türkistan anlayışları. | A\B bax mövzu 15-ə<br><br>A 1,2,4<br>B 7,14,15 |
| 10. | | **Mövzu 18. İran və Türküstan e.ə. IV-III minilliklərdə**<br>Elam çarlığı. Daxili və xarici siyasət məsələləri. Zaqroş dağları ətrafı xalqlar. Qərbi və Şərqi Türkistanın etno-mədəni birliyi.<br>**Mövzu 19. İran və Türküstan e.ə. II-I minilliklərdə** Saklar, skiflər (aşquz və ya işkuz), massagetlərin tarix səhnəsinə çıxması. Manna və Midiya dövlətlərinin meydana gəlməsi. Midiyanın yüksəlişi. Skif-sak yürüşləri. Midiya səltənətinin yaranması, Assuriya ilə mübarizə və beynəlxalq vəziyyəti. Əhəməni səltənətinin yaranması. Farsların siyasi-hərbi və ictimai-hüquqi uğurları. Baktriya və Soqdiana. Əhəməni dövlətinin yüksəlişi və süqutu. | A\B bax mövzu 17-ə<br><br>A\B bax mövzu 17-ə |
| 11. | | **Mövzu 20. Qədim İran və Türküstanın mədəniyyəti.**<br>Yazı və ədəbiyyat. Din və mifologiya. Atəşpərəstlik və Zərdüştlük. Əzəmətli memarlıq və bədii sənət. Elmi nailiyyətlər. Böyük ipək yolu.<br>**Mövzu 21. Qədim Hindistan, Hind-Çin yarımadası və Cənub-Şərqi Asiya**. Ərazi, əhali və təsərrüfat həyatı. Etnik və dil mənsubiyyəti məsələsi. Erkən mənbələr. Qədim Hindistanın öyrənilməsi və tarixşünaslığı, onun Şərq sivilizasiyasındakı yeri və rolu. Bölgənin coğrafi quruluşu. | A 2,4<br>B5,12,13,14<br><br>A 1,2<br>B 14,15 |
| 12. | | **Mövzu 22. Qədim Hindistan, Hind-Çin yarımadası və Cənub-Şərqi Asiyada erkən dövlətçilik və ictimai-siyasi inkişaf.** Qədim Hind sivilizasiyası. Hind çayı vadisindəki şəhər mədəniyyəti. Arilərin yürüşləri. Brahmanizm və Qədim Hindistanın ictimai-sinfi quruluşu. Hind-Çin yarımadasında qədim sinifli cəmiyyətlər və | A\B bax mövzu 21-ə |

| | | | |
|---|---|---|---|
| | | dövlətçilik.<br>**Mövzu 23. Qədim Hindistan Əhəməni və Makidoniya işğalları dövründə.** Hindistanda Mauriya səltənəti. Buddizm. Vyetnamda e.ə. I minillikdə erkən dövlətçilik. Qədim Vyet dövləti. Mon-kxmer və İndoneziyada erkən sinifli cəmiyyət. Kxmerlər. | A\B bax mövzu 21-ə |
| 13. | | **Mövzu 24 Qədim Hindistan, Hind-Çin yarımadası və Cənub-Şərqi Asiyanın mədəniyyəti.** Yazı və ədəbiyyat. Dini etiqad və kastalar. Təsviri incəsənət, memarlıq və heykəltaraşlıq. Elmi biliklər və nailiyyətlər. Mədəniyyətin özünəxas xüsusiyyətləri və dünya irsindəki yeri. Hesab.<br>**Mövzu 25. Qədim Çin, Koreya və Yaponiya.**<br>Ərazi, əhali və təsərrüfat həyatı. Etnik və dil mənsubiyyəti məsələsi. Erkən mənbələr. Qədim Çinin öyrənilməsi və tarixşünaslığı, onun Şərq sivilizasiyasındakı yeri və rolu. | A 2<br>B 12,13,14<br><br>A 1,2,6<br>B 14,15 |
| 14. | | **Mövzu 26. Qədim Çin, Koreya və Yaponiya erkən səltənətlər və süsalələr dövründə.**<br>Şan-İn səltənəti. Çində Çjou dövləti. Çinin siyasi cəhətdən birləşdirilməsi uğrunda mübarizə və Hun tayfa ittifaqının basqınları. Sin sülaləsinin yüksəlişi və Çinin birləşdirilməsi. Sin səltənətində islahatlar və siyasət. Çinin beynəlxalq vəziyyəti və hərbi səfərlər. Hun dövləti ilə mübarizə və müvəffəqiyyətlər. Koreya yarımadasında və Yaponiya adalarında erkən sinifli cəmiyyət və dövlətçilik.<br>**Mövzu 27. Çin, Koreya və Yaponiya e.ə. I minillikdə**<br>Çində Xan sülaləsinin hakimiyyəti. Çinin qüdrətinin artması və işğalçı yürüşlər. İctimai-iqtisadi durum və beynəlxalq vəziyyət. Çin dövlətinin hərbi uğurları və xarici siyasəti. Erkən Koreya dövlətləri: Çoson, Koqurye, Pekçe və Silla. Yapon adalarında erkən tayfa ittifaqları. Yamato dövlətinin təşəkkülü və sintoizmdən buddizmə keçid məsələsi. | A\B bax mövzu 25-ə<br><br>A\B bax mövzu 25-ə |
| 15. | | **Mövzu 28. Qədim Çin, Koreya və Yaponiyanın mədəniyyəti.**Əsatir və dini inanclar. Yazı və hesab. Fəlsəfə və Ədəbiyyat. Konfusiçilik. İncəsənət və memarlıq. Böyük Çin səddi. **(YOXLAMA)** | A 2, 6<br>B 12,13,14 |
| 16. | | **FİNAL İMTAHANI (14-28-ci mövzular)** | |

**Əlavə N1 (Qədim Şərq tarixi fənindən təqdimat və məqalələrin mövzuları)**

1) Mixi yazı (yaranması, yayılması və araşdırılması tarixi)
2) Heroqlif (yaranması, yayılması və araşdırılması tarixi)
3) Qədim Şərqin yazı və şəhər mədəniyyəti olan sivilizasiyaları
4) Şumer: etimoloji və terminoloji baxımdan (dili, yazısı, mədəniyyəti, incəsənəti, xalqı və ölkəsi)
5) Babil; Babilistan ölkə və dövlət kimi
6) I və II Babil\Babilistan çarlıqları
7) Babilistan-Assuriya mədəniyyəti
8) Babil dili, yazısı və şəhəri
9) Aşşur şəhəri (meydana çıxma və tədqiq tarixi)
10) Assur\Assuriya çarlığı (siyasi-hərbi və sosial-mədəni inkişafı)

11) Hett\Het dili, çarlığı və xalqı (tarixi, ictimai və siyasi yeri)
12) Böğazgöy\Boğazköy abidəsi, arxivi və qazıntısı (tarixi-arxeoloji və tarixşünaslıq baxımından)
13) Hattuşaş\Hattusa\Hattusas (Dünyanın maddi mədəni irsi kimi)
14) Mittaniya\Mitanniya\Mittani\Mitanni çarlığı (siyasi-hərbi və sosial-mədəni inkişafı)
15) "Dəniz xalqları" (tarixi və siyasi fenomen kimi)
16) "Heyvani üslub" (tarixi və mədəni fenomen kimi)
17) Hatt\Hatti ölkəsi, dili, mədəniyyəti və incəsənəti
18) Koloniyalar: Antik\Qədim koloniyalar (erkən və yeni kolonializmin fərqli və oxşar cəhətləri)
19) Elam: ölkə, dil və xalq (tarixi, ictimai və siyasi yeri)
20) Sami\Semit xalqları və tayfaları (tarixi, ictimai və siyasi yeri)
21) Zikkurat (memari və tarixi mahiyyəti, yayılma coğrafiyası və analogiyaları)
22) Qədim İran və İraq (siyasi-hərbi və sosial-mədəni fərqlər və bənzərliklər)
23) Qədim Ərəbistan
24) İran: ölkə, dil və mədəniyyət
25) Qədim Koreya (coğrafi şərait, yarımada və ölkə)
26) Sfinks (dini və memari xüsusiyyəti, unikal maddi-mədəni irs)
27) Qədim Fələstin (Fələstin: ölkə, əhali və dil)
28) Qədim Suriya (ölkə və tarixi inkişaf)
29) Hürri: xalq, dil və mədəniyyət
30) Qədim Hindistan (Hindistan: yarımada, ölkə, mədəniyyət və din)
31) Qədim Çin (coğrafi şərait, ölkə, əhali və dil)
32) Qədim Şərqin dini inancları və etnik dinləri
33) Qədim Yaponiya (coğrafi şərait, adalar və ölkə)
34) Qədim Şərqin memarlıq və inşaat mədəniyyəti (ənənəsi, texnologiyası və öyrənilməsi)
35) Qədim Azərbaycan (Tarixi Azərbaycanın coğrafi və tarixi yeri)
36) Qədim Anadolu və Yunan dünyası (sivilizasiyalar arası əlaqələr, təsirlər və mənimsəmələr)
37) Qədim Qafqaz (coğrafi və etnik arealı, mədəni və sosial inkişafı, siyasi-hərbi və beynəlxalq durumu)
38) Qədim dövlətçilik və siyasi qurumlar (siyasi təkamül, dövlətin tipləri və politogenez problemi müasir tarix və siyasət elmlərində)
39) Qədim Şərq və Antik sivilizasiya (qarşılıqlı təsirlər və müdaxilələr)
40) Qədim Türk dünyası və Türkistan (Turan anlayışı, erkən türklər və türk dövrü problemi)

Ədəbiyyat və mənbələr üçün linklər


1. http://web2.anl.az:81/read/page.php?bibid=43914&pno=1
2. https://ebooks.az/az/book/ShoUY2WQ
3. https://ebooks.az/az/book/7YDIXUri
4. http://web2.anl.az:81/read/page.php?bibid=587688&pno=1
5. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000399740
6. http://web2.anl.az:81/read/page.php?bibid=399740&pno=11
7. https://ebooks.az/az/book/UAfMZkHv
8. https://ebooks.az/en/book/9aLmzFgA
9. http://elibrary.bsu.edu.az/files/books_135/N_119.pdf
10. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000002379